

# İpək dəsmal

Sait Faiq Abasıyanıq

İpək fabrikinin enli giriş qapısının qarşısına Ay işığı düşmüşdü. Qapının önündən bir neçə adam tələsik keçdi. Mən həvəssiz, hara gedəcəyimi bilmədən qapıdan çıxarkən qapıçı arxamdan səsləndi:

- Hara gedirsən?

- Bir az gəzişim, - dedim.

- Kəndirbaza tamaşa etməyə gedirsən?

Cavab vermədiyimi görüb əlavə etdi:

- Hamı gedir. Bursaya beləsi gəlməyib.

- Heç həvəsim yoxdu, - dilləndim.

Yalvardı-yaxardı, məni fabrikə qarovul çəkməyə razı saldı. Bir az oturdum, siqaret çəkdim, zümzümə elədim. Sonra ürəyim sıxıldı. Nə edəcəkdim, qalxdım, qapıçı otağındakı manşırlı dəyənəyi götürüb fabrikin həyətində dolaşmağa başladım.

Qızların çalışdığı qoza açan sexin qarşısından keçər-keçməz şıqqıltı eşitdim. Cibimdən fənəri çıxarıb yandırdım. Ətrafa boylandım. Fənərin uzanan gur işığında qaçan iki çılpaq ayaq göründü. Yüyürüb qaçanı yaxaladım.

Qapıçı otağına oğru ilə birgə girdik. İşığı yandırdım.

Bu nə balaca oğlandır? Bərk-bərk yapışdığım əli uşaq əli imiş. Gözləri par-par yanırdı. Öz-özümə güldüm, əllərini buraxdım.

Uşaq əlindəki kiçik qələmlə üstümə cumdu və çeçələ barmağımı yaraladı. Yaramazı qamarladım. Ciblərindən azacıq qaçaq tütün, bir-iki papirosluq kağız, təmiz bir dəsmal çıxdı. Qanamış barmağıma onun qaçaq tütünündən basdım, dəsmalı cırıb yaramı bağladım. Tütündən iki qalın papiros bükdük, dostcasına söhbətə başladıq.

On beş yaşı vardı. Oğru deyilmiş. Biri ondan ipək dəsmal istəmişdi, özünüz başa düşürsünüz, sevdiyi qonşu qız. Pulu da yox ki, gedib bazardan alsın. Düşünüb-daşınmış, ağlına fabrik gəlmişdi.

Mən:

- Yaxşı - dedim - emalatxana bu tərəfdədir, sən o biri tərəfdə nə gəzirdin?

Güldü, emalatxananın yerini hardan bilirdi.

Yenə bir papiros büküb yandırdıq. İsinişmişdik.

Xalis bursalı idi, köklü-köməcli...

İstanbulda olmamışdı. Mudanyanı isə - bunu deyəndə üzümü görəydiniz - bircə dəfə görmüşdü.

Əmir Sultanda, ay işığında, dəli-dolu vaxtımda mənim də belə tay-tuşlarım olmuşdu.

Yəqin ki, bunun da onlar kimi uzaqdan səsini eşitdiyim Çöydərənin hovuzlarında dərisini Günəş qaraldıb. Mövsümdən mövsümə meyvələrin qabığının rəngini alıb. Üzü qoz qabığı kimi qaralmışdısa, dişləri təzə qoz ləpəsi kimi ağappaqdır. Mən bilirəm, yayın əvvəlindən qoz mövsümünə qədər Bursa uşaqlarının əlləri ərik və şaftalı, düyməlrədən ucları görünən fındıqların naxışlı yarpaqların ətrini verər.

Divar saatı on iki çaldı. İndilərdə kəndirbazın tamaşası bitməli idi.

- Aradan çıxım, - dedi.

Onu ipək dəsmalsız yola saldığımdan məyus olmuşdum. Eşikdən gələn səsə diksindim. Qapıçı deyinə-deyinə içəri girdi. Arxasında da balaca oğru...

Oğrunun qulağını çəkdi. “Bu yaşda uşaq oğrudur! Əfəndim, həbsxanada yatıb ağıllansın!” deyərək qapıçı çılpaq dabanlarını nazik bir söyüd budağı ilə qaşıdı. Yaxşı ki, müdir işə yoxdu, yoxsa onu polisə verərdi.

Çox qorxutduq, ağlamadı. Gözləri ağlamağa hazır uşaqların gözlərinə döndü, amma dodaqları titrəmədi, qaşları düyünlənmədi. Yalnız bir az pərişandı.

Buraxılınca azad edilmiş göyərçinə döndü. Ay işığını və qarğıdalı tarlasını yarıb keçirmiş kimi qaçıb getdi.

* * *

Mən o zaman malların yığıldığı anbarın üstündəki otaqda yatırdım. Yerim rahatdı, hələ Aylı gecələrdə necə gözəl olurdu. Pəncərəmə yaxın, lap yaxın tut ağacı vardı. Ay işığı tut yarpaqlarından süzülür, otağıma ələnirdi. Yay-qış pəncərəmi açıq saxlayırdım. Nə sərin, nə xoş mehlər, yellər əsirdi. Bir vaxt gəmidə çalışdığımdan küləklərin hardan əsdiyini qoxusundan tanıyırdım.

Yuxum yüngüldür. Səhərə yaxındı. Eşikdən xışıltı səsi gəlirdi. Kimsə tut ağacına çıxmışdı. Qorxudan yerimdən qalxa bilmədim, qışqırmadım. Pəncərədə bir kölgə gördüm.

O idi, yavaşca pəncərədən içəri girdi. Önümdən keçərkən gözlərimi yumdum. Dolabları qarışdırdı. Rəfləri əlləşdirdi. Susurdum. Doğrusu, onun cəsarətinə heyran qalmışdım, malların hamısını qoltuğuna vurub aparsaydı, mane olmayacaqdım. Sabah müdir, “Ölmüşdün?” deyə məni şallaqlayacağını, işdən qovacağını bildiyim halda səsimi çıxartmayacaqdım.

Oğlan gəldiyi kimi bomboş, səssiz-səmirsiz pəncərədən çıxıb getdi. Bu anda budağın sındığını duydum. Yıxılmışdı. Aşağıya endiyim zaman başına xeyli adam yığılmışdı. Qapıçı da ordaydı.

Can verirdi. Yumulmuş əlini qapıçı açdı. Ovcunun içindən bir ipək dəsmal köpürdü. Xalis ipək dəsmal belədir, nə qədər əzsən, bürüşdürsən, əlin açılan kimi ovcundan su kimi fışqırar.

Kaspi 2020.- 10 iyun.- S.9.

Ol, Əjdər.